http://xeberle.com/gundem/76572-sirlerini-bolushmeye-qisqancliq-eden-sumqayitll-senetkar-fotolar.html

# Sirlərini bölüşməyə qısqanclıq edən sumqayıtlı sənətkar



Masanın üstündə milli ornamentli parçalardan tikilmiş canamaz dəsti, müxtəlif ölçüdə çantalar, pulqabılar düzülüb.

"Açığı, bu parçaların xəstəsiyəm, çox bəyənirəm. Milli parçalardan hər ölçüdə, hər fasonda çanta tikirəm. Qiyməti 10 manatdan başlayır, 30 manata, 50 manata da var. Amma təkcə çanta tikmirəm. Bax bu mənim öz ideyamdır. Canamaz dəstini deyirəm. Ağ parçaya "Ya Əli" yazıb içərisinə qoyacam, öz əlimlə hazırladığım təsbehləri, möhürü də əlavə edəcəm. Çox şeyi açıqlamaq istəmirəm".

Dekorativ sənətlə məşğul olan Xuraman Səfərova sirlərini, sənətinin incəliklərini, ideyalarını paylaşmağı çox da sevmir, özü demiş bu məsələdə bir az qısqancdır. Bu haqda sonra. Əl işlərini isə bizə həvəslə göstərir: süfrələr, milli geyimlər, araqçınlar, müxtəlif daşlardan hazırlanan bijuteriyalar, milli elementlərlə bəzənmiş qənddanlar, suvenirlər...

"Dövlət bayrağımızı muncuqla yığmışam, amma hələ natamamdır. Onu şüşə çərçivəyə salacam və üzərində "Qarabağ Azərbaycandır" yazılacaq. Belə bir kompozisiya alınacaq. Bu da adi konfet qabıdır, bu yun çırpan qadındır, bu da dərzi otağıdır, 30 manata yığıram bunu... Adi konfet, peçenye qutusundan düzəltmişəm". Usta yan-yana sıralanmış sırğaları, qolbaqları göstərir: "Boyunbağılarına baxın. Efirə çağırmışdılar. Modelyer Fəxriyyə Xələfova bu modeldən birini özünə götürdü. Bu mənə məxsus ideyadır, başqa yerdə yoxdur çünki. Hərdən deyirlər ki, bunu bir az

ucuz sat. Deyirəm ki, pulsuz götür, amma sonra get Bakını gəz, bundan tapsan gəl üstündə pay da verim. Mən öz işimdən əminəm. Daşlardan, qaşlardan, muncuqlardan portret də yığıram. Onlardan birində prezident İlham Əliyevlə xanımı Mehriban Əliyeva həkk olunub. Bu portreti özünə bağışlamağı düşünürəm, yolunu axtarıram. Onu satmaq olmaz".

Xuraman Səfərova dekorativ sənətlə 1998-ci ildən, 27 yaşından məşğul olmağa başlayıb.

"O da peşəkar kimi yox. Sadəcə qızlarım var, onlara sırğa, qolbaq düzəldə-düzəldə başladım. Qonum-qonşu, dost-tanış gördü, bəyəndi, aldı. Mən də həvəsə gəldim. Sonra jurnallar aldım, ordan öyrənməyə başladım. İndi öyrənməyə nə var, ancaq o zaman öyrənməyə yer də yox idi. Nə kitab-jurnal vardı, nə internet, nə də kurslar". Az sonra o, yaşadığı Sumqayıtda ilk sərgisini keçirir.

"Bakıdan nümayəndələr gəlmişdilər, işlərimi bəyəndilər. Orda diplom da aldım. Məni Bakıya dəvət etdilər, keçmiş Lenin muzeyində, indiki Muzey mərkəzində sərgilər keçirilirdi. Hər dəfə də diplomla, mükafatla qayıdırdım".

Əl işlərini bəyənənlər, müştərilərisə tək Sumqayıtda, Bakıda deyil, həm də Naxçıvan Muxtar Respublikasındadır.

"Özüm naxçıvanlıyam. Qızımın biri orda yaşayır, ailəlidir. Naxçıvanda olanda eşitdik ki, sərgi keçirilir. Qızımla maraq üçün tədbirə getdik. Nə gizlədim, ordakı işləri bəyənmədim. Yaxınlaşdım tədbirin təşkilatçılarına. Onlara işlərimin fotosunu göstərdim. Məndən soruşdular ki, sərgimizə qatılarsınız? Cavab verdim ki, məmnuniyyətlə. Həmin il birinci yerə layiq görüldüm, diplom aldım. Ondan sonra hər il məni ora dəvət edirlər. Mən orda həm baxış, həm də satış baxımından birinci yerdəyəm. Düzəltdiklərimin çoxunu Naxçıvanda satıram. Orda 10 gün sərgi olanda illik qazancım çıxır. Bu il də gedəcəkdim. Sentyabrın 27-də getməliydik. Elə biz havaya qalxanda xəbər gəldi ki, müharibəyə görə sərgi təxirə düşür". X.Səfərova danışır ki, işinin konkret vaxtı yoxdur. Ona görə ayrıca ofis icarəyə götürməyi düşünmür. Bəzən səhər o başdan işləməyə başlayır, bəzən gecə yarıya qədər çalışır.

"Hətta işləməyəndə belə fikirləşirəm ki, əlimdəki daşlardan, parçalardan nə hazırlayım. Bununla nəfəs alıram. Pandemiya olmasa işim çox yaxşıdır. Özümə,əl işlərimə güvənirəm. İşimdən zövq alıram. Özümü işsiz təsəvvür etmirəm".

X.Səfərova İqtisadiyyat Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə yaradılmış Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının üzvüdür.

O, bir qədər öncə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin - USAİD-in azərbaycanlı xanımlar üçün təşkil etdiyi təlimə də qatılıb. Burda biznes qurmağın, onu inkişaf etdirməyin yollarını öyrənib.

"Amerika təşkilatı da sağ olsun, mənə bu avadanlıqları verdi" – deyib evin zalında düzülmüş tikiş maşınlarını göstərir.

"Onlarla dərzi kimi milli paltarlar, araqçınlar tikirəm. Təşkilat bizə müxtəlif parçalar alıb. Onlardan fərqli şeylər hazırlamağı da düşünürəm. Naxış maşını veriblər. Çay dəsmalına, süfrələrə müxtəlif naxışlar, sözlər yazacam. Məsələn, "Mənimlə təmizlik yaxşıdır" və s."

Usta bu təlimə təsadüfən qatıldığını söyləyir.

- Mənə Sumqayıtın İcra Hakimiyyətindən dedilər ki, bu təlimə qatıl, çox sevindim, çox şey öyrəndim orda.

- **Məsələn, nə öyrəndiniz?**

- İlk baxışda adi görünə bilən, amma önəmli şeylər. Təlimdə bizə neçə metr parçadan nələr hazırlamağın yollarını başa saldılar. Məsələn, bu parçadan bir canamaz tikdim, ondan qalandan çanta hazırladım, ondan qalanından pulqabı və burdan qalanları qurama döşəkçələr etdim. Yəni heç nə itkiyə getmədi. Bir metr parçaya, məsələn, 8 manat verdim, bir canamaz hazırladım, nəticədə onu 20 manata satacam, 10 manata çantanı, 5 manata pulqabını satacam, bir metr parçadan təxminən 35 manat gəlir əldə edəcəm. Bizə yardım edirlər ki, sabah ailəmizə dəstək olaq, normal qazanc əldə edək.

Demişdik axı, Xuraman Səfərova əl işlərinə qarşı çox qısqancdır.

"Onları sosial mediada paylaşmıram, çox yayılmasını istəmirəm. Mənə çox deyirlər bu sənəti öyrət. Öyrətmək istəmirəm, qısqancam... Yalan danışmayacam. Yalnız iki qızıma, bir də bacıma öyrətmişəm".

Amma ideyalarını bölüşməyi sevməyən bu xanım USAİD-in daha bir təklifinə razılıq verib. Azərbaycanlı xanımlara təlim keçəcək. "O təşkilat mənə o qədər şey öyrətdi ki, onlara "yox" deyə bilməzdim. Arada halallıq olmalıdır. Təlim keçəcəm gənclərə. Amma bəzi sirləri də özümdə saxlayacam".

Müsahibimizlə söhbətə burda son veririk. Bugünlərdə başı qarışıqdır. Yeni sifariş götürüb, xarıbülbül broşu hazırlamalıdır. Bu işdə qızı yardım edəcək ona, 20 günə 1000 ədəd broş hazırlamalıdır. "Yorulmayasanız" deyib sağollaşırıq.











